17 oktyabr 2024-cü il RESPUBLİKA

# Füzuli: dirçəliş, modern quruculuq, şərəfli qayıdış

*İşğaldan azad edilən Füzuliyə ilk səfərimizdə dəhşətli bir mənzərə ilə qarşılaşdıq, dağıdılmış və yandırılmış şəhər təbiətlə baş-başa qalmışdı, dünyanın sonu haqqında filmdən bir fragmentə bənzəyirdi. Salamat bir tikili qalmamışdı, uçurulmuş binaların qalıqları arasında ilk ağıla gələn fikir bu oldu ki, mənfur düşmən daşları, binaları, torpağı, ağacları belə etnik nifrət zəminində məhv edib, bu yerlərdən azərbaycanlıların izini və tarixini silməyə çalışıb. Dağıdılmış şəhər erməni vəhşiliyindən xəbər verirdi. Hətta qəhrəman hərbçilərimiz Füzuli şəhərini işğaldan azad edəndə bayraqlarını sancmaq üçün bir dənə də olsun salamat bina tapa bilməyiblər. Dağılmış Mədəniyyət Evinin fasadı ilə kifayətlənməli olublar. Halbuki ermənilərin bu varvarlığı dünyanın gözü qarşısında baş verirdi. Hazırda dünyanı qlobal iqlim dəyişmələri, torpaqların səhralaşması və təmiz içməli su çatışmazlığı ciddi şəkildə təhdid edir, insanlığa qarşı təhlükə yaranır, bəşəriyyəti mühafizə etmək üçün alimlər baş sındırırlar. Belə təhlükəli bir vaxtda ermənilər on min kvadratkilometr ərazini xarabalığa çeviriblər, ekologiyaya ciddi zərbələr vururlar, şirin su mənbələrini qurudublar, dünyanın ağciyəri hesab olunan meşələri qırıblar. Deməli, ermənilər təkcə azərbaycanlıların deyil, bu vəhşilər bütün insanlığın düşmənidirlər. Bunun başqa adı yoxdur.*



## Haqq, ədalət döyüş meydanında bərpa edildi

Qarabağın payızı çox gözəl, çox duyğulu olur, bu yerlərdə gəzərkən insanın qəlbini ovsunlayan hissləri sözlə ifadə etmək olmur, budaqlardan qopan yarpaqlar torpağın üstünə xalı kimi sərilib, quşların səsi xoş avazlı nəğmə kimi könlümüzü ovundurur, bir vaxtlar yağıların sükunətə, möhnətə, xarabalığa çevirdikləri yurd yerlərinə şərəfli və ləyaqətli bir həyat qayıdıb, təbiət hər tərəfi sehrli rənglərə bürüyüb. Halbuki dörd il bundan əvvəl oktyabr ayının ortalarında bu yerlərdə qanlı döyüşlər gedirdi, Azərbaycanın ər oğulları torpaqlarımızı işğalçılardan azad etmək üçün hünər göstərirdilər, hər tərəf barıt qoxuyurdu, güllələr, mərmilər göydə cövlan edirdi, ərənlərimiz addım-addım, qarış-qarış irəliləyir, düşmənin başını əzir, sözün əsl mənasında, qəhrəmanlıq dastanı yazırdılar. 44 günlük Vətən müharibəsi bizim gücümüzü göstərdi, Silahlı Qüvvələrimizin rəşadətini, qəhrəmanlığını, xalqımızın birliyini, Qalib Ali Baş Komandan İlham Əliyevin əzmini, fədakarlığını göstərdi.

Qədim tarixi olan Füzuli həm də hərbi-strateji mövqeyinə görə çox mühüm əhəmiyyət kəsb edən bir nöqtədə yerləşir. Təsadüfi deyil ki, işğalçı Ermənistan bunu nəzərə alaraq ən möhkəm müdafiə xətlərini məhz Füzulidə qurmuşdu. Düşmənlər uzun illik işğal dövründə bu ərazilərdə hazırlıqlar görmüş, müxtəlif ölçülü xəndəklər qazmış, müdafiə sistemi yaratmış, süni əngəllər yaratmış, yeraltı tunellər qazmış və onların minalarla, elektron sistemlərlə və digər vasitələrlə qorunmasını təmin etmişdilər. Təbii ki, bütün bunların asanlıqla keçilməsi çox çətin idi. Bu əngəllərin keçilməsi üçün xüsusi texnikalardan istifadə edilməli, taktikalar tətbiq olunmalı idi. Ermənilər qürrələnərək deyirdilər ki, Azərbaycan Ordusu üç mərhələli müdafiə xətlərini keçə bilməz, habelə döşlərinə döyərək Ermənistan ordusu yenilməzdir xəyalı ilə dünyanın gözünə kül üfürürdülər. Müzəffər Azərbaycan Ordusunun bölmələri tərəfindən Füzulinin azad olunması ermənilərin bu mifini darmadağın etdi. Yenilməz, keçilməz deyilən xətlərin keçilməsi, erməni ordusunun məhv edilməsi, silah-sursatın ələ keçirilməsi, əsgərlərinin döyüşü tərk edib qaçması, ordusunun dağılması, eyni zamanda ermənilərin döyüş əzmini və qərarlılığını yerlə bir etdi. Erməni xalqının, dövlətinin psixoloji olaraq çökməsinə, sonun başlanğıcına səbəb oldu. Qarabağı 28 il boyunca analarının laylalarında, Vətən, millət, bayraq kəlmələrini dinləyərək böyüyən nəsil, döyüşçü ruhlu, rəşadətli oğullar azad etdi. Cəbhədə ağır məğlubiyyətə uğrayan Ermənistan ordusu və onların köməyinə gəlmiş muzdlular Füzulinin əlimizdə olan kəndləri və qəsəbələri atəşə tutan düşmən hesab edirdi ki, adamları qorxudacaq, onlar evlərini tərk edəcək. Həmişə olduğu kimi, düşmən yenə də yanıldı. Heç kəs doğma evini tərk etmədi. Ölümsaçan bombalar, quduz güllələr füzulililəri qorxutmadı. Düşmən mərmisi ilə evləri dağılan adamlar öz həyətində çadır quraraq yaşadılar. Uzağa getmədilər. Onların əzmini, inamını qıra bilməyən düşmən silahlı qüvvələrimiz tərəfindən ağır zərbələr aldı. Otuz ilə yaxın həsrətində olduğumuz torpaqlarımız şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilib.

Qeyd edək ki, Vətən müharibəsində silahlı qüvvələrimizin ilk uğurlu hərbi əməliyyatları məhz Füzuli rayonundan başlayıb. Müharibənin ilk günündə - 2020-ci il sentyabrın 27-də Füzulinin Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri və Cəbrayılın Böyük Mərcanlı və Nüzgar kəndləri azad edildi. Düşmən üzərində əldə edilən qələbə cəbhədə bütün vəziyyəti ordu bölmələrimizin xeyrinə dəyişdi, ruh yüksəkliyi yaratdı. Qəhrəman ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyat nəticəsində, Vətən müharibəsinin iyirminci günündə, 2020-ci il oktyabrın 17-də Füzuli şəhəri daxil olmaqla rayonun 62 yaşayış məntəqəsi işğaldan azad edildi. Füzuli uğrunda gedən döyüşlər İkinci Qarabağ müharibəsinin cənub-şərq cəbhəsində ən mühüm döyüşlərindən biri idi. Uğurlu Füzuli əməliyyatı ilə, həmçinin Cəbrayıl və Xocavənd rayonunun da bir sıra yaşayış məntəqələri ordumuzun bölmələri tərəfindən azad edildi. Əlbəttə ki, Füzulinin azad edilməsi hərbçilərimizin böyük peşəkarlığı, məharəti və fədakarlığı sayəsində mümkün oldu. Müzəffər silahlı qüvvələrimizin şəxsi heyətinin fədakarlığı sayəsində döyüş meydanında düşməndən xalqımızın qisası alındı və həlak olanların qanı yerdə qalmadı. Azərbaycanın Vətən müharibəsində düşmən üzərində qalib gəlməsindən 8 gün sonra - 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilən Füzuli rayonunda olublar. Qalib Ali Baş Komandan İlham Əliyev Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırıb. Bu qürurverici görüntülər Azərbaycanın müasir tarixinin ən şanlı səhifələrindən biridir. Dövlətimizin başçısı İlham Əliyev bildirib ki, həm işğal dövründə, həm müharibə dövründə bütün təzyiqlərə, bütün bəyanatlara baxmayaraq, bizim qabağımızda heç bir qüvvə dayana bilmədi. Biz Ermənistan ordusunu darmadağın etdik, erməni mifologiyasına son qoyduq və bütün dünyaya xalqımızın böyüklüyünü nümayiş etdirdik. Bu şanlı Qələbə çoxəsrlik Azərbaycan tarixində əbədi yaşayacaqdır.

## Quruculuq yollardan başlandı

Qalib Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən ordumuzun Şuşaya doğru hərəkət etdiyi keçilməz dağ cığırlarının yerində Zəfər yolu çəkilib və istifadəyə verilib. Qeyd edək ki, Zəfər yolunun tikintisinin qısa vaxtda həyata keçirilməsi qazandığımız parlaq Qələbənin daha bir simvoludur. Torpağa məhəbbətin və milli düşüncənin, yüksək texnoloji imkanların istifadə olunduğu bu layihə ilin bütün fəsillərində çətin relyef şəraitində, keçilməz dağ yolları yarılaraq həyata keçirilib. İnşası davam etdirilən və uzunluğu 123.6 kilometr olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu (Zəngəzur dəhlizi) ən iri infrastruktur layihələrdən hesab olunur. Dövlətimizin başçısı tərəfindən 2022-ci il fevralın 14-də təməli qoyulan Horadiz-Ağbənd dəmir yolu xəttinin çəkilişi sürətlə davam etdirilir. Ölkəmiz üçün həm strateji, həm də iqtisadi əhəmiyyətə malik Horadiz-Ağbənd dəmir yolu xətti Zəngəzur dəhlizinin tərkib hissəsidir. Layihənin icrası nəticəsində Azərbaycanın Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə birbaşa nəqliyyat əlaqələri yaranacaq, ölkəmizin geoiqtisadi əhəmiyyəti daha da artacaq. Yolçəkənlər Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Daşaltı kəndinin ərazisindən keçən hissəsində tunelin inşasını davam etdirirlər. Çətin relyefdə rahat gediş-gəlişi təmin etmək məqsədilə burada ümumilikdə iki tunel tikiləcək və onların hər biri ikizolaqlı olacaq. Tunellərin hər birinin uzunluğu 530 metr, eni isə 12 metr olacaq. Başqa bir mühüm nəqliyyat qovşağı hesab olunan Əhmədbəyli-Füzuli-Şuşa yolunda tikinti işləri artıq yekunlaşır. Qeyd edək ki, 4 və 6 hərəkət zolaqlarından ibarət Əhmədbəyli-Füzuli-Şuşa yolunun uzunluğu 81 kilometrdir. Ağdam-Füzuli, Füzuli-Hadrut avtomobil yolları da yenidən çəkilir. Ağdam-Füzuli avtomobil yolu Ağdam, Ağcabədi, Füzuli rayonları ərazisindən keçir. Yeni yol Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, həmin rayonların sosial-iqtisadi inkişafına müsbət təsir göstərəcək.

Bir sözlə, bənzərinə az rast gəlinən böyük bir inkişaf ilə yurd yeri yenidən dirçəlir. Körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Füzuli inşa edilir.

## Arzuların şəhəri

30 ilə yaxın mənfur düşmənin çirkin əlləri ilə sinəsinə mina əkilən torpaqlarımız bu gün rahat nəfəs alır, onların basdırdıqları ölümsaçan minalar axtarılıb çıxarılır, yerində isə güllər, ağaclar əkilir, evlər inşa edilir. Bu gün Azərbaycan 10 min kvadratkilometr ərazidə yeni bir həyat qurur. Yuxarıda qeyd etdiyimiz kimi, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyublar. Bundan başqa, Füzuli şəhərinin baş planı təsdiq olunub. Baş plana əsasən, Füzuli şəhəri ən müasir və analoqu olmayan bir yaşayış məskəninə çevriləcək. Yeni Füzuli şəhəri işğaldan əvvəlki şəhər ilə müqayisədə daha geniş əraziyə malik olacaq. Növbəti 20 ildə əhali sayı 1993-cü il ilə müqayisədə 2.5 dəfə artacaq. Füzuli şəhəri hava limanı da daxil olmaqla, 1936 hektar əraziyə malik olacaq. 46 kilometr avtomobil yolları olan şəhərdə piyada, velosiped yolları 85 kilometr olacaq. Əsasən yaşıllıqdan ibarət olan Füzuli şəhərinin mərkəzində 5 hektar Memorial Kompleksi salınacaq. Orada İşğal muzeyi, Memorial Kompleks və ona bitişik Zəfər parkı olacaq. Şəhəri əhatə edən yüksəklikdə Bayraq meydanı yaradılacaq. Füzuli şəhərində 21 hektarlıq böyük meşə parkı salınacaq. Ərazidə 5000-dən çox Eldar şamı, həmişəyaşıl sərv, zeytun, Şərq çinarı, ağcaqayın və digər növ ağaclar əkiləcək. Artıq Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən Füzuli şəhərində ilk yaşayış məhəlləsinin əsası qoyuldu. 17,8 hektar ərazini əhatə edəcək yaşayış məhəlləsi mərhələli şəkildə tikilib istifadəyə veriləcək. İlk mərhələdə 1, 2, 3 və 4 otaqlı mənzillərdən ibarət 65 mənzilli 4-5 mərtəbəli yaşayış binaları inşa ediləcək. Məhəllədə çoxfunksiyalı binalar da olacaq. Ümumilikdə məhəllədə 2860 nəfərin yaşaması nəzərdə tutulur. Artıq həmin məhəlləyə insanlar köçürülüb. İşğaldan azad edilən yurd yerlərinə gedəndə bir tərəfdə erməni barbarlığının, digər tərəfdə isə qalib Azərbaycan xalqının qurub-yaratmaq əzminin şahidi oluruq. Azad edilən rayonların ərazilərində iri infrastruktur layihələrin icrası uğurla davam etdirilir, bir-birinin ardınca həyat əhəmiyyətli və müasir texnologiyalarla inşa edilən yolların, hava limanlarının, enerji qovşaqlarının, aqroparkların, "ağıllı kənd"in, turizm obyektlərinin açılışları gələcəyin xoş günlərindən xəbər verir. Azərbaycan Vətən müharibəsində ildırım sürətli döyüş əməliyyatları ilə işğalçıları torpaqlarımızdan necə qovmuşdusa, indi də həmin sürətlə, yüksək əhvali-ruhiyyə ilə, öz gücünə arxalanaraq Qarabağı və Şərqi Zəngəzuru dirçəldir, düşmənin viran qoyduğu yerlərdə müasir şəhərlər, kəndlər salınır. Şərəfli və əzəmətli qələbədən 9 ay sonra Qarabağın hava qapısı hesab edilən, böyük strateji əhəmiyyətə malik Füzuli Hava Limanının istifadəyə verilməsi ağır müharibədən çıxmış ölkənin iqtisadi durumu haqqında dolğun təsəvvür yaratdı, dövlətimizin gücünü və iradəsini nümayiş etdirir. Beləliklə, ən müasir tələblərə cavab verən beynəlxalq hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonlarımızın tezliklə bərpa olunacağını və oraya yenidən həyatın qayıtmasını göstərir. Bu hava limanının istifadəyə verilməsi bölgəyə səfər edənlərin rahatlığını təmin edəcək, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verəcək, nəinki Füzulinin, ümumilikdə bölgənin sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq. Ötən il oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər.









## 17 oktyabr Füzuli Şəhəri Günüdür

Bəşər övladının ən böyük arzularından biri ev tikmək, yuva qurmaq, ocaq yandırmaq, ailə sahibi olmaq, firavan həyat yaşamaq olub. Təəssüf ki, ermənilər bu bəşəri hisslərdən məhrumdurlar, onların kirli niyyəti yalnız ev yıxmaq, adam öldürmək, yandırmaq, dağıtmaq, terror törətmək, azərbaycanlılara qarşı deportasiya, etnik təmizləmə və vəhşilik olub. Ermənilərin son iki yüz il ərzində azərbaycanlılara qarşı törətdikləri vəhşiliyə və barbarlığa son qoyulub. 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfərdən sonra Prezident İlham Əliyevin göstərişi və sərəncamları ilə işğaldan azad edilmiş ərazilərimizdə dərhal quruculuq və abadlıq başlayıb. Keçmiş məcburi köçkünlərin səbirsizliklə gözlədikləri Böyük Qayıdış başlayıb. İlk qayıdış Cəbrayıl rayonunun Cocuq-Mərcanlı kəndinə oldu, sonra Zəngilan rayonunun Ağalı kəndinə oldu. Prezident, Qalib Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilən ərazilərə mütəmadi səfərlər edir, aparılan quruculuq işlərinin gedişi ilə tanış olur, tövsiyə və tapşırıqlarını verir. Eyni zamanda işğal dövründə Ermənistanın bu torpaqlarda törətdiyi vəhşiliyi, vandallığı, cinayətləri və azərbaycanlılara qarşı törətdikləri qəddarlığı təkzibedilməz faktlara dünyanın, beynəlxalq təşkilatların və erməni havadarlarının diqqətinə çatdırır, işğalçı, faşist erməni mahiyyətinin iç üzünü ifşa edir. İşğaldan azad edilən torpaqların, şəhərlərin və kəndlərin dirçəldilməsi üçün çox mühüm dövlət sənədlərini imzalayan dövlətimizin başçısı, həm də bu ərazilərdə çox böyük infrastruktur layihələrin həyata keçirilməsi üçün strateji fəaliyyət Planını təsdiq edib və bölgədə bütün işlər, həyata keçirilən layihələr həmin plan əsasında aparılır.

## Qayıdış sevinci

Füzulinin Baş Planına əsasən, 3 böyük kənd - Şəkərcik, Yuxarı Aybasanlı və Şıxlı kəndləri rayon mərkəzinə birləşdiriləcək. Bundan başqa, bəzi kəndlər də yerli mərkəzlər kimi bərpa olunacaq. Məsələn, Horadiz, Böyük Bəhmənli, Qaraxanbəyli, Dövlətyarlı, Qarğabazar və başqa iri kəndləri daha üstün mövqedə planlaşdırmaq nəzərdə tutulur. Bu nə deməkdir, yəni burada adi kəndlərdən fərqli olaraq əlavə funksiyalar işə salınacaq. Bəzi kəndlərdə çoxmərtəbəli yaşayış binaları tikiləcək. Adi kəndlərdə əsasən bələdiyyə binaları, fərdi yaşayış evləri, polis, uşaq bağçası və orta məktəblər, tibb məntəqələri olacaq. Daha iri kəndlərdə isə peşə məktəbi və poliklinikalar, yanğınsöndürmə məntəqələri, məhkəmə, yaşayış məskənləri, kinoteatrlar, muzeylər olacaq. Füzulinin yeni coğrafiyası modern, ağıllı kənd konsepsiyası əsasında cızılır və uğurla tikilir. Qeyd edək ki, Baş Plana əsasən, Füzuli şəhərində 10-dan artıq məktəb, 150 yerlik mərkəzi rayon xəstəxanası və poliklinikalar tikiləcək. Yenidən qurulan Füzuli şəhərində həyat öz axarına qayıdır. Şəhərdə artıq 833 ailə olmaqla, 3136 nəfərin daimi məskunlaşması təmin edilib. Ailələr üçün yenidən inşa olunan binalarda yaşayış üçün hər cür şərait yaradılıb. Füzuli şəhərinə qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə edirlər. Artıq həyatın qayıtdığı Füzulidə uşaqların sevinc səsləri eşidilir. Şəhər sakini Rəna Hümbətova Füzulidən 7 yaşında çıxıb, ailəsi ilə birlikdə məcburi köçkün həyatı yaşayıb. 1994-cü ildə uğurlu Horadiz əməliyyatı zamanı azad olunan kəndlərdən birinə qayıdaraq orada məskunlaşıblar. Danışır ki, 2020-ci ildə digər torpaqlarımızla yanaşı, Füzulinin də azad edilməsini toy-bayram kimi qarşılayıblar. Keçmiş məcburi köçkün, Füzuli sakini Nazilə Əliyeva deyir ki, doğma yurdumuza qayıtmağımıza çox şadıq. Allah Prezidentimiz İlham Əliyevə uzun ömür bəxş etsin. Hamımız sevinc içindəyik. Allah torpaqlarımız uğrunda canını verən şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Füzulidə çox gözəl şərait yaradılıb. Evlər rahatdır, isti su, işıq var. Sakin Fariz Əliyev söyləyib ki, Füzulidən məcburi köçkün düşəndə altı yaşım var idi, o zamanlar mənim uşaqlıq illərimə təsadüf edib. Bu gün isə böyük qürur hissi ilə Füzuliyə qayıdıram. Başqa bir sakin Seymur Hüseynov bildirir ki, uzun illər ayrı qaldığımız doğma yurdumuza qayıdırıq. Sevincliyəm, eyni zamanda fərqli hissləri yaşayıram. Artıq məcburi köçkünlük həyatımız sona çatır. Bizə yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarıq, tikintidə əməyi olanlara təşəkkür edirik.

Füzuli uğrunda döyüşlərdə iştirak edənlərin, bu mühüm qələbədə payı olanların şücaət və vətənpərvərliyi diqqətdən kənarda qalmayıb, dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə "Füzulinin azad olunmasına görə" medalı təsis edilib. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə rayonun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş 25 167 hərbi qulluqçu "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunub. İşğaldan azad edilən torpaqlarda ikinci "ağıllı kənd" Füzuli rayonunun Dövlətyarlı kəndində salınır. Xatırladaq ki, kəndin təməli 2021-ci il oktyabrın 17-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətyarlı kəndində üç, dörd və beşotaqlı olmaqla, ümumilikdə ilkin mərhələdə 450 evin inşası nəzərdə tutulub. Kənddə məktəb və uşaq bağçası tikiləcək, kəndin mərkəzində meydan salınacaq və bazar inşa ediləcək. Ən əsası isə kənd sakinlərinin məşğulluğunun təmin edilməsi birinci yerdə dayanır. Kəndin miskin görkəmi düşmənin qəddarlığından xəbər verir. Azadlığına qovuşan kəndə yenidən həyat qayıdır. Qeyd edək ki, kəndin torpağı çox münbitdir. Ötən il artıq həmin ərazilərdə şum və səpin aparılıb. Təbii ki, camaat qayıdandan sonra burada yenidən bölgü aparılacaq. Mayın 5-də Prezident İlham Əliyev tərəfindən daha iki kəndin - Dədəli və Pirəhmədli kəndlərinin təməli qoyulub. Kəndlərin ümumi ərazisi müvafiq olaraq 314 və 178 hektar olacaq. Dədəli kəndində 1 050, Pirəhmədli kəndində isə 565 fərdi yaşayış evi tikiləcək. Dövlətimizin başçısı İlham Əliyevin sərəncamı ilə hər il oktyabrın 17-si Füzuli Şəhəri Günü kimi bayram edilir. Şəhər günü həm də qürur, fəxr, qayıdış, doğma yurd sevincini, parlaq qələbəni ifadə edir. Dörd il bundan əvvəl işğalçıların sükunətə, möhnətə, xarabalığa çevirdikləri yurd yerlərinə indi şərəfli və ləyaqətli bir həyat qayıdır, Füzuli şəhəri yeni görkəmdə, modern üslubda tikilir və xoşbəxt gələcəyə addımlayır.

Hələ bu yerlərdən ağır müharibənin nəfəsi çəkilməyib, düşmənin qəsdən basdırdığı minalar təhlükə saçır, buna baxmayaraq, mərmi, güllə səslərini mala, çəkic səsləri, qurub-yaratmaq həvəsi əvəz edir, düşmənin vurduğu yaralar sağalır. Füzuliyə, 30 ildən sonra doğma yurda qayıdanların ürək sözləri, sonsuz sevinci, keçirdikləri qürur və iftixar hissi bütün keçmiş məcburi köçkünlərin könlündən keçən ən dəyərli və qiymətli fikirləri ifadə edir. Ağalıya, Talışa, Zabuxa, Susa, Laçına, Şuşaya, Füzuliyə köçən insanlar bu gün çox qürurluyuq, çox sevinirik, taleyimizin ən sevincli günüdür söyləyirlər. Qarşımızda yeni həyat başlayır, çox həyəcanlıyıq. Doğma yurd yerlərinə qayıdış xoşbəxtliyini bizə bəxş edən Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevə dərin təşəkkür edir, şəhidlərimizin ruhu qarşısında baş əyirik. Tanrı dövlətimizi və Azərbaycan Ordusunu qorusun! Bu gün şəhidlərimizin ruhu daha da şaddır. Çünki biz - əbədi sakinlər torpaqlarımıza yaşamağa, qurmağa qayıdırıq.

**Salman ALIOĞLU,**
**"Respublika".**